**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# "AZƏRBAYCAN SSR-DƏ MİLLİ SİYASƏT VƏ ONUN ƏSAS İSTİQAMƏTLƏRİ (XX ƏSRİN 70-Cİ İLLƏRİ - 80-Cİ İLLƏRİN ƏVVƏLLƏRİ)"

| | |
|---|---|
| İxtisas: | 5503.02 – Vətən tarixi |
| Elm sahəsi: | Tarix |
| İddiaçı: | **Mehdiyev Rəşid Mehdi oğlu** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | tarix üzrə elmlər doktoru, professor<br>**İbrahim Xudaverdi oğlu Zeynalov** |
| Rəsmi opponentlər: | tarix üzrə elmlər doktoru, professor<br>**İradə Mehtiqulu qızı Hüseynova** |
| | tarix üzrə elmlər doktoru, professor<br>**Vəkil Səfiyar oğlu Həsənov** |
| | tarix üzrə elmlər doktoru, dosent<br>**Ədalət Qasım oğlu Qasımov** |

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | tarix üzrə elmlər doktoru, professor<br>**İbrahim Xudaverdi oğlu Zeynalov** |
| Dissertasiya şurasının elmi katibi: | tarix üzrə fəlsəfə doktoru, dosent<br>**Kəmalə Telman qızı Nəcəfova** |
| Elmi seminarın sədri: | tarix üzrə elmlər doktoru, professor<br>**Fazil Eynulla oğlu Baxşəliyev** |

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan bəşəriyyətin qədim sivilizasiya ocaqlarından biri kimi zəngin tarixi və mədəni irsə malikdir. Beş min ildən artıq dövlətçilik ənənələri ilə seçilən Azərbaycan ümumbəşəri mədəniyyət xəzinəsinə qiymətli töhfələr vermiş nadir regionlardan biridir. Tarixi təkamül prosesində formalaşan milli-mənəvi dəyərlər sistemi xalqımızın dövlətçilik ənənələri ilə sıx bağlı olmuş və onun ictimai-siyasi, elmi və mədəni inkişafının əsas dayaqlarından birinə çevrilmişdir. XX əsrdə, xüsusilə sovet totalitar rejimi dövründə milli kimliyin əsas sütunlarını təşkil edən bu dəyərlər ciddi məhdudiyyətlərə məruz qalmış, ideoloji nəzarət mexanizmləri vasitəsilə onların inkişaf imkanları daraldılmışdır. Bununla belə, Azərbaycan xalqı milli-mənəvi irsini qoruyub saxlamış və gələcək nəsillərə ötürə bilmişdir.

XX əsrin 70–80-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən siyasət milli-mənəvi dəyərlərin müdafiəsi və inkişafında dönüş nöqtəsi olmuşdur. Onun təşəbbüsləri nəticəsində milli identiklik qorunmuş, Azərbaycan xalqının tarixi-mədəni irsinin tədqiqinə, elm və təhsilin inkişafına, milli dəyərlərin ictimai həyatda möhkəmləndirilməsinə geniş imkanlar yaradılmışdır. Bu amillər mövzunun aktuallığını şərtləndirir və milli siyasətin elmi aspektlərinin öyrənilməsini zəruri edir. Azərbaycan xalqının əsrlər boyu formalaşmış tolerantlıq və qonaqpərvərlik ənənələri XX əsrin 70–80-ci illərində həyata keçirilən milli siyasətin uğurla tətbiqinə əlverişli zəmin yaratmışdır. Bu ənənələr müxtəlif etnosların sülh və qarşılıqlı anlaşma şəraitində birgə yaşamasına imkan vermiş, milli münasibətlərin sabitliyini təmin etmişdir. Nəticədə Azərbaycan SSR-də etimad mühiti möhkəmlənmiş, respublikanın milli siyasəti ittifaq miqyasında da nümunəvi model kimi dəyərləndirilmişdir. Milli həmrəyliyin möhkəmləndirilməsi üçün 70–80-ci illərdə qoyulmuş əsaslar bu gün də Azərbaycanda multikultural və tolerant mühitin qorunmasına xidmət edir. Bu xüsusiyyətlərin elmi baxımdan öyrənilməsi mövzunun aktuallığını bildirən mühüm amillərdən biridir. 1970–80-ci illərdə Azərbaycan SSR-də həyata keçirilən milli siyasətin təhlili müasir dövrdə Azərbaycanda həyata keçirilən milli siyasətin ideoloji

əsaslarını anlamaq üçün mühüm mənbədir. O dövrdə formalaşan milli siyasət konsepsiyası bu gün müstəqil Azərbaycanın siyasi və ideoloji kursunun əsas təməl sütunlarından biridir. Həmin illərdə yetişdirilən mütəxəssislər və hərbi kadrlar Azərbaycanın müstəqillik illərində dövlət quruculuğu və milli ordunun formalaşmasında aparıcı qüvvəyə çevrilmişdir.

Məhz bu illərdə milli siyasətin əsas istiqamətləri – ziyalı təbəqənin fəaliyyəti üçün şəraitin yaradılması, mədəniyyət və incəsənət xadimlərinin təşviqi, Azərbaycan dilinin və milli dəyərlərin qorunmasına göstərilən diqqət özünü daha qabarıq şəkildə göstərmişdir. Digər sovet respublikaları ilə müqayisədə Azərbaycanda milli-mənəvi dəyərlərin daşıyıcılarına – elm və mədəniyyət xadimlərinə verilən yüksək qiymət və dəstək ölkənin ictimai həyatında mühüm rol oynamışdır. Rusiyada İ.Rotski, B.Pasternak, A.Soljenitsin kimi tanınmış ziyalılar ciddi təqiblərə məruz qaldıqları halda, Azərbaycan SSR-də Heydər Əliyevin həyata keçirdiyi mərhələli milli siyasət strategiyası nəticəsində respublikanın ziyalı təbəqəsi daha təhlükəsiz mühitdə elmi və ədəbi yaradıcılıqla məşğul olmaq imkanı əldə etmiş, milli-mədəni həyatın inkişafına öz töhfələrini vermişdir. Bu baxımdan, Azərbaycan SSR-də 70–80-ci illərin milli siyasətini araşdırmaq, həmin siyasətin əsas istiqamətlərini, nailiyyətlərini və məhdudiyyətlərini öyrənmək yalnız tarixi proseslərin obyektiv qiymətləndirilməsi üçün deyil, həm də müasir dövrdə milli siyasət konsepsiyalarının düzgün anlaşılması baxımından aktuallıq kəsb edir.

XX əsrin ikinci yarısında, xüsusilə İ.Mustafayevin (1954–1959) rəhbərliyi dövründə milli-mənəvi dəyərlərin qorunması istiqamətində atılan addımlar sovet mərkəzi hakimiyyəti tərəfindən təqiblə qarşılanmış, 1959–1969-cu illərdə isə milli siyasətdə geriləmə müşahidə olunmuşdur. Bu təcrübə göstərir ki, sovet rejimi milli identikliyin inkişafını məhdudlaşdırmağa çalışmışdır. Dissertasiyada həmin məqamlara da toxunulması 1970–80-ci illərdə Heydər Əliyevin həyata keçirdiyi milli siyasətin mahiyyətini daha dərindən anlamağa imkan verir və tədqiqatın elmi əhəmiyyətini artırır

XX əsrin 60-cı illərində Azərbaycanda həm iqtisadi, həm də sosial sahədə dərin böhran mövcud idi. Respublika müttəfiq respublikalar arasında inkişaf göstəricilərinə görə sonuncu yerlərdən birində

idi, sənaye və kənd təsərrüfatında durğunluq hökm sürürdü.[1] Mərkəzi hakimiyyətin respublikanı xammal bazası kimi görməsi və qeyri-effektiv planlaşdırma siyasəti iqtisadi geriliyi daha da dərinləşdirmişdi. Bu şərait milli siyasətin həyata keçirilməsinə də mənfi təsir göstərirdi. Totalitar rejim dövründə Azərbaycan dili və milli-mənəvi dəyərlər ciddi məhdudiyyətlərlə üzləşmiş, ruslaşdırma siyasəti nəticəsində gənclərin sosiallaşması daha çox sovet ideologiyası və rus mədəniyyəti əsasında formalaşdırılmışdı.[2] Bütün bunlar milli kimliyin qorunmasını zəiflətmiş və milli şüurun inkişafına mane olmuşdur.

1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsi respublikanın ictimai-siyasi həyatında yeni mərhələnin başlanğıcı olmuşdur.[3] Onun rəhbərliyi illərində Azərbaycanda sosial-iqtisadi tərəqqi, dövlət idarəçiliyində islahatlar, milli-mənəvi dəyərlərin bərpası və qorunması istiqamətində mühüm addımlar atılmışdır. 1969–1982-ci illər respublikanın ictimai-siyasi sabitliyinin möhkəmlənməsi, iqtisadi inkişafın sürətlənməsi və milli özünüdərk proseslərinin güclənməsi ilə xarakterizə olunur.

Mərkəzi hakimiyyətin təzyiqləri və ideoloji məhdudiyyətlərinə baxmayaraq, bu dövr milli kimliyə qayıdış və milli şüurun yüksəlişi baxımından mühüm əhəmiyyət daşıyır. Heydər Əliyev sovet ideoloji sisteminin sərt çərçivələrində milli siyasəti ehtiyatla və düşünülmüş şəkildə həyata keçirməklə, milli dəyərlərin inkişafına real imkanlar yaratmışdır. Bu siyasət nəticəsində respublikanın mədəni və intellektual potensialı güclənmiş, milli-mənəvi irsin qorunaraq zənginləşdirilməsi təmin edilmişdir.

Tədqiq olunan dövr həm də Azərbaycanın ictimai-siyasi həyatında yeni mərhələnin başlanğıcını təşkil etmiş, iqtisadi və mədəni tərəqqi ilə yanaşı milli özünüdərk proseslərinin güclənməsi ilə yadda qalmışdır. Bu baxımdan, həmin illərdə həyata keçirilən milli siyasətin istiqamətlərinin və nəticələrinin elmi təhlili müasir dövrdə milli

---

[1] Zeynalov, İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında / İ.Zeynalov. – Bakı: Azərnəşr, – 2004. – s.5

[2] Hacıyev, İ.M. Heydər Əliyev siyasəti: tarix və müasirlik / İ.Hacıyev. – Bakı: Elm, – 2023. – s.147

[3] Zeynalov, İ.X. Azərbaycanın Milli-Mənəvi Dəyərləri İntibah Dövründə (1969-1982-ci illər) // Türkiyə: Akademik Tarih ve Düşünce Dergisi – 2022. № 3, – s.606-625.

kimliyin qorunması və mədəni irsin davamlı inkişafı baxımından xüsusi aktuallığa malikdir.

Bu tədqiqat, Sovet milli siyasətinin Azərbaycan SSR-də hansı əsas istiqamətlər üzrə formalaşdığını, yerli rəhbərliyin bu siyasətə münasibətini və onun uzunmüddətli təsirlərini araşdırmaqla, müasir tarixşünaslıq üçün yeni elmi nəticələr əldə etməyə imkan verəcəkdir.

Tədqiqata cəlb olunan mövzu tarixşünaslıqda kifayət qədər aktuallıq kəsb etsə də, onun kompleks və sistemli şəkildə tədqiqi hələ də tam başa çatmamışdır. Müstəqil Azərbaycan dövlətinin formalaşdığı və inkişaf etdiyi bir zamanda bu dövrün milli siyasətinin öyrənilməsi müxtəlif aspektlərdə – siyasi idarəetmə, sosial-iqtisadi proseslər, milli-mənəvi dəyərlərin qorunması və mədəniyyət sahəsində aparılan siyasət kontekstində araşdırılmışdır. Sovet dövrü tarixşünaslığında bu məsələ əsasən rəsmi ideologiya çərçivəsində təqdim olunmuşdu. Müstəqillik dövründə aparılan tədqiqatlar göstərir ki, mərkəzin milli siyasəti əslində assimilyasiya və ideoloji nəzarət mexanizmləri ilə səciyyələnmiş, milli özünüdərkə və mədəni inkişaf proseslərinə müəyyən məhdudiyyətlər tətbiq edilmişdir.

Mövzuya aid ayrı-ayrı kitablar, dövrü mətbuat səhifələr, arxiv materialları və dövrün rəsmi sənədləri əsasında aparılan araşdırmalar, elmi məqalələr, internet saytlarında toplanmış məlumatlar həmin dövrün real mənzərəsini daha dərindən dəyərləndirməyə imkan verir. Tədqiqat prosesi əsasən Azərbaycan, rus dillərində mövcud olan müxtəlif mənbələrin təhlili əsasında həyata keçirilmişdir. Xüsusilə arxiv materialları, rəsmi sənədlər, həmçinin təşkilatların və müxtəlif dövlətlərin rəsmi nümayəndələrinin dövri mətbuatda dərc olunmuş çıxışları, məruzələri və müsahibələri araşdırılaraq müqayisəli şəkildə təhlil olunmuşdur. Problemi tədqiq etmək üçün ən mühüm mənbələr Heydər Əliyevin əsərləri, konfranslarda, mədəni-kütləvi tədbirlərdə, mədəniyyət incəsənət xadimlərinin yubileylərində və bu xarakterli görüşlərdə etdiyi dərinməzmunlu məruzə, nitq və çıxışların toplandığı çoxcildli nəşləridir. Qırx altı cilddən ibarət olan "Müstəqilliyimiz əbədidir" çoxcildliyi Heydər Əliyevin siyasi irsini, dövlətçilik fəlsəfəsini və müstəqil Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi fəaliyyətini əks etdirən fun-

damental nəşrlər toplusudur.[4] Bu əsər siyasi, iqtisadi, mədəni və sosial sahələrdə həyata keçirilən işləri təhlil etmək baxımından olduqca qiymətli mənbədir. Dissertasiyada həmçinin, Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, Azərbaycan Dövlət Arxivi, Azərbaycan KP qurultaylarınınn materiallarından, Heydər Əliyev fondunun internet saytında yerləşdirilmiş arxivindən[5], "Heydər Əliyev" elektron sənədlər toplusundan[6]. Tədqiqat prosesində faktoloji materialların toplanmasında dövrün cari mətbuatı, rəsmi informasiya mənbələri, kütləvi informasiya vasitələrində yer alan mühüm məlumatlar işin mənbə bazasının tərkib hissəsini təşkil etmişdir. Burada Sovetlər dövründə nəşr olunan "Kommunist" jurnalı, müstəqillik dövründə çap olunmağa başlayan "Xalq qəzeti", "Azərbaycan" qəzeti, "Respublika" qəzeti kimi dövri nəşrlərdə olan materiallardan istifadə olunmuşdur.

Həmçinin, 2019-cu ildə iki cilddə çap olunmuş "Azərbaycanda elm və təhsil sənədlərdə. Azərbaycan KP MK Bürosu və Katibliyinin qərarları (iyul 1969 – noyabr 1982)" sənədlər toplusu[7] Azərbaycan KP MK-nın Büro və Katibliyi tərəfindən elm və təhsil sahəsində qəbul olunan qərarları əhatə edib, sovet dövründə elmi-təhsil siyasətinin təhlili üçün fundamental mənbə sayılır. 2021-ci ildə nəşr olunmuş iki cilddən ibarət "Azərbaycanda mədəniyyət və incəsənət:

---

[4] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. – 1997. – 615 s.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 3. – 1997. – 488 s.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 4. – 1997. – 528 s.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 5. – 1998. – 500.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 17. – 2006. – 528 s.

[5] Heydər Əliyev Fondu. Rəsmi sayt. [Elektron resurs]. / – URL: https://heydar-aliyev-foundation.org/az

[6] Heydər Əliyev. Elektron sənədlər toplusu. [Elektron resurs]. / – URL: https://heydaraliyev.preslib.az/

[7] Культура и искусство в Азербайджане: постановления Бюро и Секретариата ЦК КП Азербайджана (июль 1969 – ноябрь 1982 гг.): в 2-х томах / Управление делами Президента Азербайджанской Республики, Архив общественно-политических документов; ред.-сост. Э.С.Алекперова, сост. Л.Дж.Гусейнова [и др.]. – Т. 1: июль 1969 – декабрь 1975 гг. – Баку: Элм и Тахсил, – 2021. – 682 с.

Azərbaycan KP MK Bürosu və Katibliyinin qərarları (iyul 1969 – noyabr 1982)" sənədlər toplusu[8] Azərbaycan Respublikasının Prezidenti yanında İctimai-Siyasi Sənədlər Arxivindən alınan sənədlər əsasında hazırlanmışdır. Kitabda toplanmış sənədlər Azərbaycan KP MK Bürosunun mədəniyyət və incəsənət sahəsində qəbul etdiyi qərarları əhatə edir və sovet dövründə mədəniyyət siyasətinin həyata keçirilmə mexanizmlərini öyrənmək baxımından mühüm mənbədir.

Azərbaycan alimlərinin Ümummilli Lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinə həsr olunmuş tədqiqatları, onun milli dəyərlərin qorunması və inkişafı sahəsində həyata keçirdiyi siyasətin araşdırılması baxımından mühüm elmi əhəmiyyət kəsb edir. Bu əsərlər Heydər Əliyevin milli kimliyin möhkəmləndirilməsi, mədəni irsin qorunması və ictimai-siyasi inkişaf istiqamətində atdığı addımları sistemli şəkildə təhlil etməyə şərait yaradır. Bunlardan İ.Zeynalov[9], Y.Mahmudov[10], H.Orucov[11], İ.Hüseynova[12],

---

[8] Наука и образование Азербайджана в документах: постановления Бюро и Секретариата ЦК КП Азербайджана (июль 1969 – ноябрь 1982 гг.): в 2-х томах / Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики; ред: М.Дж. Гасымлы, А.Дж. Искендеров, [и др.]. – Т. 2: январь 1977 – ноябрь 1982 гг. – Баку: Элм и Тахсил, – 2019. – 484 с.

[9] Zeynalov, İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında / İ.Zeynalov. – Bakı: Azərnəşr, – 2004. – 326 s.; Zeynalov, İ.X. Azərbaycanın milli dövlətçilik tarixində Heydər Əliyev zirvəsi: dahi şəxsiyyətin şərəfli ömür yolu / İ.Zeynalov. – Bakı: Füyuzat, – 2024. – 656 s.; Zeynalov, İ.X. Heydər Əliyev və Azərbaycan Respublikasında ordu quruculuğu məsələləri // Bakı: BDU xəbərləri. Humanitar Elmlər seriyası – 2019. №4, – s.52-69.; Zeynalov, İ.X. Totalitar sovet cəmiyyəti: tarixin ibrət dərsləri / İ.Zeynalov. – Bakı: Ləman nəşriyyatı poliqrafiyası MMC, – 2017. – 720 s.

[10] Heydər Əliyev: [2 cilddə] / red. Y.M.Mahmudov. – Bakı: AMEA A.A.Bakıxanov adına Tarix institutu, – c. 8: Turxan NPB. – 2013. – 500 s; Mahmudov, Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti / Y. Mahmudov. – Bakı: Təhsil, – 2002. – 328 s.; Mahmudov, Y.M. Heydər Əliyev: tariximizin dirçəliş konsepsiyası / Y.Mahmudov. – Bakı: Təhsil, – 2006. – 328 s.

[11] Orucov, H.X. Heydər Əliyev və Azərbaycanda milli siyasət / H.Orucov. – Tbilisi: İntelekti, – 2003. – 182 s.

[12] Hüseynova, İ.M. Heydər Əliyev və Qafqazda sülh prosesi / İ.Hüseynova. – Bakı: Çaşıoğlu, – 2008. – 672 s.; Hüseynova, İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu / İ.Hüseynova. – Bakı: Təhsil, – 2004. – 472 s.; Hüseynova, İ.M. Müstəqilliyimizin təminatçısı / İ.Hüseynova. – Bakı: Təhsil, – 2003. – 504 s.

R.Mehdiyev[13], X.Quliyeva[14], M.Qasımlı[15], Pişnamazzadə S.[16], L.Əliyeva[17], A.Qurbani[18] və başqalarının əsərlərində Ümummilli lider Heydər Əliyevin milli siyasət konsepsiyası və bu çərçivədə həyata keçirdiyi siyasətin ayr-ayrı sahələri təhlil olunmuşdur. Dissertasiyanın yazılması zamanı həmin əsərlərdən istifadə olunmuşdur.

Bununla yanaşı, mövzu ilə bağlı xarici tədqiqatçılar da müəyyən araşdırmalar aparmışlar. Türk tarixçilər H.Adıgüzel[19] və İ.Ülkü[20] öz əsərlərində Heydər Əliyevin Kommunist Partiyası sistemində topladığı təcrübəni və bu sayədə Azərbaycan SSR-də həyata keçirdiyi uğurlu tədbirləri təhlil etmişlər. Xüsusilə, Sovet milli siyasətinin ümumi prinsipləri və yerli xüsusiyyətləri ilə bağlı Qərb alimlərinin əsərlərində müəyyən yanaşmalar mövcuddur. Rus və Qərb tədiqatçıları araşdırdığımız problemin bəzi məqamlarına əsərlərində toxunmuşlar. Bu tədqiqatçılardan, A.L.Alstadt[21], A.Bennigsen[22], J.Dorn-

---

[13] Mehdiyev, R.Ə. Azərbaycan: tarix, irs və müstəqillik fəlsəfəsi / R.Mehdiyev. – Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı, – 2001. – 276 s.; Mehdiyev, R.Ə. XXI əsrdə milli dövlətçilik / R.Mehdiyev. – Bakı: XXI – Yeni nəşrlər evi, – 2003. – 248 s.

[14] Quliyeva, X.N. Heydər Əliyev və mənəvi-estetik dəyərlər / X.Quliyeva. – Bakı: Azərnəşr, – 2002. – 176 s.

[15] Qasımlı, M.C. Heydər Əliyev – istiqlala gedən yol (1969–1987-ci illər) / M.Qasımlı. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2006. – 608 s.

[16] Pişnamazzadə, S.P. Heydər Əliyev və Azərbaycan Respublikasında milli-mənəvi dəyərlərin qorunması: / tarix elmləri namizədi dis. / – Gəncə, 2008. – 150 s.

[17] Əliyeva, L.A. Heydər Əliyev: yenilikçi düşüncəyə malik siyasətçi (1969–1982) / L.Əliyeva. – Bakı, – 2023. – 208 s.

[18] Qurbani, A. Mənim Hərbi liseyim / A.Qurbani. – Bakı: "Əbilov, Zeynalov və oğulları", – 2002. – 352 s.

[19] Hüseyn, A. Zirve: Haydar Aliyev'in hayatı / H.Adıgüzel. - İstanbul: İleri yayınları, - 2007. - 493 s.

[20] İrfan, Ü. Kızıl Yıldızdan Hilale Haydar Aliyev'in Fırtınalı Hayatı / Ü.İrfan. - İstanbul: Milenyum yayınları, - 2017. - 207 s.

[21] Alstadt, A.L. The Azerbaijan Turks / A.Alstadt. – Stanford, California: Hoover Institution Press, – 1992. – 357 p.

[22] Bennigsen, A. Azerbaidzhan / A.Bennigsen. – Prepared for the Conference on the Soviet Caucasus, co-sponsored by the U.S. International Communication Agency and the Kennan Institute for Advanced Russian Studies. – Washington: The Wilson Center, – 1979. – 63 p.; Bennigsen, A., Broxup, V. The Islamic Threat to the Soviet State / A.Bennigsen, V.Broxup. – New York: St.Martin's Press, – 1983. – 182 p.

berg[23], Brian D.Silven[24] və b. adlarını çəkmək olar. Sovet və rus yazıçısı A.Lixanovun[25], N.Zenkovichin[26] tədqiqatları Heydər Əliyevin Azərbaycan SSR-yə rəhbərlik dövrünün öyrənilməsi baxımından əhəmiyyətlidir. Tədqiqatda istifadə olunan mənbə və ədəbiyyat kompleksi mövzunun tarixi-xronoloji ardıcıllıqla, müxtəlif aspektlərdən hərtərəfli və sistemli öyrənilməsinə imkan yaratmışdır. Beləliklə, bu mövzunun hərtərəfli öyrənilməsi üçün yeni mənbələrin cəlb edilməsi, arxiv sənədlərinin geniş araşdırılması və milli siyasətin müxtəlif istiqamətləri üzrə kompleks elmi yanaşmanın tətbiqi zəruridir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti XX əsrin 70-ci illəri - 80-ci illərin əvvəllərində Azərbaycan SSR-də həyata keçirilən milli siyasət və onun müxtəlif istiqamətlərdə cəmiyyətə təsir mexanizmləridir. Bu dövrdə milli siyasət sahəsində aparılan islahatlar, onların ideoloji və institusional əsasları, Sovet mərkəzi hakimiyyətinin milli respublikalara münasibətdə tətbiq etdiyi siyasət, Ümummilli lider Heydər Əliyevin milli siyasət konsepsiyası və onun mahiyyəti, onun sosial-iqtisadi, siyasi, hərbi, milli-mənəvi, ədəbi sahədə tətbiqi tədqiqat çərçivəsinə daxil edilir. Tədqiqatın predmeti isə Azərbaycan SSR-də milli siyasətin formalaşması, onun sosial-iqtisadi, mədəni və ictimai-siyasi mühitə təsiri, milli identiklik məsələləri və bu siyasətin milli-mənəvi dəyərlərin qorunması və inkişafı kontekstində öyrənilməsidir. Tədqiqat çərçivəsində milli siyasətin milli-mənəvi dəyərlərin qorunmasına, təhsil, elm, incəsənət, dil siyasətinə, milli tarixin öyrənilməsinə təsiri, həmin dövrə aid rəsmi sənədlər, mənbələr və elmi tədqiqatlar əsasında hərtərəfli analitik təhlili həyata keçirilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Araşdırmanın məqsədi XX

---

[23] Dornberg, J. Brezhnev: the masks of power / J.Dornberg. – New York: Vikas Publishing House, – 1974. – 317 p.

[24] Silven, B.D. Population Redistribution and the Ethnic Balance in Transcaucasia // Transcaucasia: Nationalism and Social Change. Essays in the History of Armenia, Azerbaijan and Georgia, – Washington: Ann Arbor: The University of Michigan, –1983. – 143–164 p.

[25] Лиханов, А: Не иссякнет в памяти (о Гейдаре Алиеве) / Альберт Лиханов. - Москва: - 2020. - 128 с.

[26] Zenkovich, N. Heydar Aliyev. Life and Fate / N.Zenkovich. - Moscow: - 2007. - 464 p.

əsrin 70-ci illəri – 80-ci illərinin əvvəllərində Azərbaycan SSR-də tətbiq olunan milli siyasətin əsas istiqamətlərini mövcud tarixşünaslıq və mənbələr bazası əsasında kompleks şəkildə elmi təhlil etmək, onun siyasi, sosial-iqtisadi və mədəni təsirlərini təhlil etmək, Ümummilli lider Heydər Əliyevin bu sahədə fədakar fəaliyyəti, qayğısı və bu siyasətin milli identiklik və milli-mənəvi dəyərlərin qorunması baxımından rolunu təhlil etməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri:**

1. Ümummilli Lider Heydər Əliyevin Millli Siyasət konsepsiyasının formalaşması və onun əsas istiqamətlərini araşdırmaq– Sovet İttifaqında milli siyasətin formalaşma prinsiplərini və fərdi qaydada, xalqımızın milli maraqları əsasında Azərbaycan SSR-də tətbiq olunma mexanizmlərini öyrənmək.

2. Dövrün siyasi kontekstini təhlil etmək – XX əsrin 60-cı illərin sonu - 70-ci illərin əvvəllərində milli siyasət kursunun həyata keçirilməsində baş verən problemləri, 70-ci illərin sonları və 80-ci illərin əvvəllərində Azərbaycan SSR-in daxili siyasi vəziyyətini, mərkəzi hakimiyyətin milli respublikalara münasibətini və bu siyasətin icra mexanizmlərini araşdırmaq.

3. Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə milli siyasətin xüsusiyyətlərini təhlil etmək – onun bu sahədə gördüyü işləri, mərkəzi hakimiyyətin təzyiqləri fonunda milli maraqların qorunmasına yönəlmiş siyasətini qiymətləndirmək.

4. 1970–1980-ci illərin əvvəllərində Heydər Əliyevin Azərbaycan SSR-də həyata keçirdiyi milli siyasətin əsas istiqamətlərini, etnik siyasət və milli azlıqlara münasibətini, həmçinin bu siyasətin cəmiyyətin inkişafına təsirini araşdırmaq.

5. Milli-mənəvi dəyərlərin inkişafında Ulu Öndər Heydər Əliyevin rolunu öyrənmək– Sovet hakimiyyətinin milli-mədəni irsə və milli identikliyin qorunmasına münasibətini, XX əsrin 70-80 ci illərində milli dəyərlərin inkişafının əsas istiqamətini təhlil etmək.

6. Arxiv sənədləri və mənbələr əsasında elmi nəticələr çıxarmaq – dövrə dair rəsmi sənədlər, məqalələr, statistik materiallar və digər mənbələr əsasında əldə edilən faktları sistemləşdirərək ümumi nəticəyə gəlmək.

Bu vəzifələrin icrası tədqiqatın mövzuya dair elmi əsaslandırıl-

mış nəticələr çıxarmasına və Azərbaycanın milli siyasət tarixində bu dövrün spesifik xüsusiyyətlərini obyektiv şəkildə dəyərləndirməyə imkan verəcəkdir.

**Tədqiqat metodları.** Tədqiqat zamanı çoxsaylı tarixşünaslıq materiallarına elmi-nəzəri və konseptual yanaşılmış, sistemləşdirmə, ümumiləşdirmə, analiz-sintez, komparativ və retrospektiv metodlardan istifadə edilmişdir. Müxtəlif metodların tətbiqi problematikaya dair məsələlərin mahiyyətini üzə çıxarmağa və konkret elmi nəticələr əldə etməyə əlverişli şərait yaratmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işinin tədqiqat mövzusunun aktuallığını nəzərə alaraq aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

1. Ümummilli Lider Heydər Əliyevin Millli Siyasət konsepsiyasının formalaşması və onun əsas mahiyyəti – Bu konsepsiya milli-mənəvi dəyərlərin qorunması, milli özünəqayıdışın, milli özünüdərkin gücləndirilməsi, azərbaycançılıq ideologiyasının əsaslarının möhkəmləndirilməsi və dövlətin milli maraqlara əsaslanan siyasət yürütməsi prinsipləri üzərində qurulmuşdur.

2. XX sərin 70-80-ci illərində milli kadr siyasəti – XX əsrin 70-80-ci illərində Sovet İttifaqında hakim ideologiyanın təsiri altında olsa belə milli və hərbi kadrların hazırlanması və dövlət idarəçiliyində önə çəkilməsi prosesində mühüm irəliləyişlər müşahidə olunmuşdur.

3. XX əsrin 70-80-ci illərində Azərbaycan SSR-də həyata keçirilən dil siyasəti - Sovet İttifaqının vahid ideoloji və mədəni məkan formalaşdırmaq məqsədilə tətbiq etdiyi ruslaşdırma siyasətinin hakim olduğu bir dövrdə Heydər Əliyevin rəhbərliyi ilə respublikada Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Bu istiqamətdə vacib və mühüm nailiyyətlərdən biri 1978-ci ildə qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusunda ayrıca maddə ilə təsbit olunması olmuşdur.

4. Milli-mənəvi siyasətin müəyyənləşdirilməsində Ümummilli Lider Heydər Əliyev rolu- Bu dövrdə milli-mənəvi dəyərlərin qorunması və təşviqi istiqamətində mühüm addımlar atılmış, mədəniyyət, təhsil və digər sahələrində strateji qərarlar qəbul edilmişdir.

5. XX əsrin 70-80-ci illərin əvvəllərində milli dəyərlərin inkişafının əsas istiqamətləri – XX əsrin 70-80-ci illərin əvvəlləri Azərbaycan SSR tarixində milli dəyərlərin qorunması və inkişafı baxımından mühüm bir mərhələ təşkil edir. Bu dövrdə Azərbaycan rəhbərliyinin strateji yanaşması sayəsində milli-mənəvi dəyərlərin formalaşması və möhkəmlənməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır.

6. Milli özünüdərk prosesinin güclənməsi – XX əsrin 70-80-ci illərində respublikada milli özünüdərk və milli şüurun inkişafı prosesi müşahidə olunmuş, Azərbaycan ziyalıları və ictimai-siyasi xadimləri milli dəyərlərin qorunması və gələcək müstəqillik ideyalarının formalaşması istiqamətində mühüm rol oynamışlar.

7. Azərbaycanın mədəni irsinin təbliği istiqamətləri– Azərbaycanın zəngin milli-mədəni irsi tarix boyu müxtəlif mədəniyyətlərin və sivilizasiyaların təsiri altında formalaşmış və inkişaf etmişdir. XX əsrin 70-80-ci illərin əvvəllərində milli-mədəni irsin qorunması, təbliği xalqın tarixi yaddaşının yaşadılması, milli kimliyin möhkəmləndirilməsi və Azərbaycanın beynəlxalq səviyyədə tanıdılması baxımından xüsusi əhəmiyyətlidir.

**Tədqiqatın elmi yeniliyi**. Aparılan tədqiqat nəticəsində əldə edilmiş əsas elmi yeniliklər aşağıdakılardır:

1. XX əsrin 70-80-ci illərin əvvəllərində həyata keçirilən milli siyasətin konseptual təhlili: Dissertasiya işi hazırlanarkən tarixşünaslıq elminin nəzəri prinsipləri əsasında Heydər Əliyevin milli siyasət konsepsiyasının formalaşması və onun reallaşdırılma mexanizmləri kompleks yanaşma və müasir elmi metodlar tətbiq olunmaqla hərtərəfli təhlil edilmişdir.

2. Arxiv sənədlərinə əsaslanan təhlil: İntibah dövründə Azərbaycan SSR-də milli siyasətin həyata keçirilməsi ilə bağlı daha əvvəl elmi dövriyyəyə daxil edilməmiş və ya məhdud şəkildə istifadə olunmuş arxiv materialları tədqiqata cəlb olunmuş, onların əsasında yeni elmi nəticələr əldə edilmişdir.

3. XX əsrin 70-80-ci illərində milli azlıqlara münasibətin araşdırılması. 1970–1980-ci illərin əvvəllərində Heydər Əliyevin Azərbaycan SSR-də milli azlıqlara münasibəti arxiv materialları əsasında sistemli şəkildə tədqiq olunmuş, bu siyasətin respublikanın milli si-

yasət kursunun formalaşmasına və multikultural dəyərlərin inkişafına təsiri müəyyənləşdirilmiş, milli azlıqların say tərkibi isə müqayisəli cədvəllərlə təqdim edilmişdir.

4. Milli siyasətin XX əsrin 60-cı illərində və 70-80-ci illərindəki dövründəki vəziyyətinə nəzər salınır. XX əsrin 60-cı illərində milli-mədəni irsin qorunması istiqamətində müəyyən təşəbbüslər olsa da, bunlar ideoloji məhdudiyyətlər səbəbindən davamlı xarakter daşımamışdır. Lakin, Heydər Əliyevin respublikaya rəhbərliyi ilə milli siyasətdə mərhələli liberallaşma meylləri meydana çıxmış, milli-mədəni irsin qorunması və inkişafı istiqamətində tədbirlər ardıcıl və davamlı şəkildə həyata keçirilməyə başlanmışdır.

5. Heydər Əliyevin milli siyasət strategiyasının qiymətləndirilməsi: Ulu Öndər Heydər Əliyevin milli siyasətin formalaşmasında və inkişafında oynadığı rola yeni elmi baxış sərgilənmiş, onun həyata keçirdiyi tədbirlər ətraflı təhlil olunmuşdur.

6. Milli siyasət kursunun təməl prinsiplərinin formalaşma mənbələrinin müəyyənləşdirilməsi: Dissertasiyanın elmi yeniliklərindən biri müstəqil Azərbaycanda milli siyasət kursunun təməl prinsiplərinin formalaşma mənbələrinin göstərilməsi və bu prosesin sovet dövründə atılan addımlarla əlaqələndirilməsidir.

Bu tədqiqat işi, XX əsrin 70-80-ci illərində Azərbaycan SSR-də milli siyasətin mahiyyətini, onun təsir dairəsini və nəticələrini kompleks şəkildə təhlil edərək, Azərbaycan tarixşünaslığında milli siyasətə dair yeni yanaşmaların formalaşmasına töhfə verir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya işində təhlil olunan çoxsaylı faktoloji materiallardan, toplanmış ədəbiyyatlardan və çıxarılan elmi nəticələrdən dərslik və dərs vəsaitlərinin hazırlanmasında; çağdaş tarixşünaslıq problemləri ilə bağlı elmi tədqiqatların aparılmasında; intibah dövrünə dair (1969-1982-ci illər) ümumiləşdirilmiş əsərlərin yazılması və tarixi arayışların tərtib edilməsində; Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi sistemində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas məzmunu müəllifin həm respublikada, həm də Türkiyə və İsveçrədə çap edilmiş 6 elmi məqaləsində, yerli və beynəlxalq elmi konfrans materiallarında çap edilmiş 13 tezisində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasında yerinə yetirilmişdir. Dissertasiya kafedranın 21 iyun 2025-ci ildə keçirilmiş iclasında Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universitetindən dəvət edilmiş mütəxəssislərin iştirakı ilə müzakirə edilmiş və açıq müdafiəyə tövsiyə edilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş (24031 işarə), paraqraflara ayrılmış 3 fəsil (I fəsil – 74617 işarə), (II fəsil – 97072 işarə), (III fəsil – 75437 işarə), nəticə (8303 işarə), istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin mətn hissəsinin ümumi həcmi 279460 işarədir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

İddiaçı **"Giriş"**də tədqiqat mövzusunun aktuallığını əsaslandırmış və bildirmişdir ki, XX əsrin 70–80-ci illərinin əvvəlləri Azərbaycan SSR tarixində ictimai-siyasi və mədəni inkişaf baxımından mühüm mərhələ kimi səciyyələnir. Bu dövrdə Sovet İttifaqının həyata keçirdiyi siyasətdə elan olunmuş prinsiplər rəsmi olaraq bütün xalqların hüquqlarının bərabərliyini təmin etməyi nəzərdə tutsa da, real həyat praktikası çox zaman mərkəzi hakimiyyətin ideoloji maraqlarına uyğun şəkildə həyata keçirilirdi. Lakin bütün məhdudiyyətlərə baxmayaraq, bu dövrdə Azərbaycan SSR-də milli siyasətin müxtəlif istiqamətlərdə tətbiqi milli kimliyin qorunması, dilin inkişafı, mədəniyyətin zənginləşməsi və milli kadrların hazırlanması üçün mühüm imkanlar yaratmışdır.

Totalitar sovet rejimi dövründə Azərbaycan xalqı öz ana dili, dini və milli-mənəvi dəyərlərinin qorunması istiqamətində ciddi məhdudiyyətlərlə üz-üzə qalmışdır. Azərbaycan dilinin ictimai-siyasi və mədəni həyatdakı mövqeyinin zəifləməsi milli kimliyin qorunması baxımından çətinliklər yaradırdı.

1969-cu ildə Heydər Əliyevin Azərbaycan SSR rəhbərliyinə gəlməsi respublikada milli-mədəni dəyərlərin inkişafı, milli kimliyin qorunması və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi sahəsində yeni mərhələnin başlanğıcı kimi çıxış etmişdir. Onun rəh-

bərliyi dövründə milli siyasətin həyata keçirilməsində əvvəlki illərlə müqayisədə daha sistemli və məqsədyönlü yanaşmalar formalaşmış, bu sahədə keyfiyyətcə fərqli istiqamətlər müəyyən olunmuşdur.

Mövzunun aktuallığını şərtləndirən əsas amillərdən biri də ondan ibarətdir ki, 1970–80-ci illərin əvvəllərində Azərbaycan SSR rəhbərliyinin təşəbbüsləri nəticəsində milli-mədəni irsin qorunması, Azərbaycan dilinin hüquqi statusunun möhkəmləndirilməsi, təhsil və elm sahəsində milli kadrların yüksəldilməsi istiqamətində nəzərəçarpacaq addımlar atılmışdır. Bu siyasət, bir tərəfdən sovet ideologiyasının "beynəlmiləlçilik" prinsiplərinə uyğunlaşdırılaraq həyata keçirilirdi, digər tərəfdən isə respublikanın tarixi-milli dəyərlərinin inkişafına real təsir göstərirdi.

Beləliklə, seçilmiş mövzu yalnız Sovet milli siyasətinin öyrənilməsi üçün deyil, həm də müasir dövrdə milli dövlətçilik, mədəni inkişaf və milli kimliyin qorunması baxımından böyük elmi-praktik əhəmiyyət daşıyır.

**"Giriş"** hissəsində mövzunun aktuallığının əsaslandırılmasının ardınca onun işlənmə dərəcəsinə toxunulmuş, tədqiqat işinin müxtəlif məsələlərindən bəhs edən və ya ona yaxınlığı ilə fərqlənən əsərlərə münasibət bildirilmişdir. Bu hissədə iddiaçı tədqiqatın obyektini və predmetini düzgün müəyyən edə bilmişdir.

Bu hissədə tədqiqatın nəzəri əsası, mənbə bazası, elmi yeniliyindən bəhs edilən bölmələri normal hesab etmək olar. Dissertasiyada müdafiəyə çıxarılan müddəalar ayrıca olaraq fərqli və mövzunun hərtərəfli araşdırılmasına kömək edən qruplar üzrə verilmişdir.

Tədqiqatın nəzəri əsasından, mənbə bazasından və praktik əhəmiyyətindən bəhs edən hissələrin tərtibi və məzmunu da normal vəziyyətdədir. İddiaçı tədqiqatın əsas məqsədindən bəhs edərək bildirir ki, bunlar Azərbaycan SSR-də XX əsrin 70–80-ci illərinin əvvəllərində milli siyasətin əsas istiqamətlərini müəyyənləşdirmək və onların respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafına təsirini elmi baxımdan təhlil etməkdən ibarətdir.

Birinci fəsil **"Ümummilli Lider Heydər Əliyevin Millli siyasət konsepsiyasının formalaşması və onun əsas istiqamətləri"** ad-

lanır 3 yarımfəsildən ibarətdir. “XX əsrin 60-cı illərinin sonu - 70-ci illərinin əvvəllərində milli siyasət kursunun həyata keçirilməsində problemlər və çətinliklər” adlı ilk yarımfəsildə iddiaçı XX əsrin 60-cı illərinin sonu – 70-ci illərinin əvvəllərində Azərbaycan SSR-də milli siyasətin həyata keçirilməsi zamanı üzə çıxan obyektiv və subyektiv problemləri təhlil edir.

Bu dövrdə Azərbaycan dilinin dövlət idarəçiliyində, təhsildə və ictimai həyatda mövqeyi zəifləmiş, rus dili isə aparıcı status qazanmışdı. Rəsmi yazışmalar və mühüm tədbirlərin əksəriyyətinin rus dilində aparılması milli kimliyin qorunmasına ciddi maneə yaradırdı. Bu proses milli şüurun zəifləməsinə səbəb olurdu. Mədəniyyət və təhsil sahəsində də məhdudiyyətlər mövcud idi. Tarixi abidələr baxımsız vəziyyətdə qalır, milli ədəbiyyat və incəsənət isə yalnız sovet ideoloji çərçivəsi daxilində fəaliyyət göstərirdi. Kadr siyasətində milli maraqlar nəzərə alınmır, dövlət idarəçiliyində azərbaycanlı kadrların irəli çəkilməsi məhdudlaşdırılırdı.

SSRİ rəhbərliyinin “sosialist beynəlmiləlçiliyi” konsepsiyası formal olaraq xalqların bərabərliyini nəzərdə tutsa da, praktikada milli xüsusiyyətlərə əhəmiyyət verilmirdi. Nəticədə Azərbaycan dilinin, mədəniyyətinin və milli kimliyinin inkişafı ləngimiş, milli şüurun möhkəmlənməsinə ciddi maneələr yaranmışdı.

**“Heydər Əliyevin milli siyasət konsepsiyasının formalaşması və mahiyyəti”** adlı ikinci yarımfəsildə iddiaçı qeyd etmişdir ki, Heydər Əliyevin milli siyasət konsepsiyasında əsas prioritetlərdən biri cəmiyyətin mənəvi həyatında və ictimai şüurunda sovet ideologiyasının yaratdığı yanlış təsəvvürlərin aradan qaldırılması, milli identikliyin isə tarixi köklərə əsaslanan sağlam təməllər üzərində bərpası olmuşdur. Onun müəllifi olduğu milli siyasət konsepsiyası yalnız siyasi idarəetmə ilə məhdudlaşmır, həm də ictimai-siyasi, sosial-iqtisadi, hərbi, elmi-mədəni və mənəvi dəyərləri əhatə edən çoxşaxəli və kompleks xarakter daşıyır.

Heydər Əliyevin milli siyasət konsepsiyası iqtisadi inkişafla milli maraqların uzlaşdırılmasına yönəlmişdi. Bu siyasət çərçivəsində sənaye və kənd təsərrüfatı gücləndirilmiş, milli kadrların irəli çəkilməsi iqtisadi müstəqillik imkanlarını genişləndirmişdir. Hərbi sahədə azərbaycanlı gənclərin hərbi məktəblərdə təhsil almaları və yüksək

vəzifələrə irəli çəkilmələri milli hərbi elitanın formalaşmasına şərait yaratmışdır.

Beləliklə, Heydər Əliyevin milli siyasəti yalnız sovet ideoloji çərçivəsində milli münasibətlərin tənzimlənməsinə deyil, həm də milli-mədəni irsin qorunmasına, milli şüurun güclənməsinə və gələcək müstəqilliyin ideoloji-sosial əsaslarının hazırlanmasına xidmət etmişdir.

**"1970-1980-ci illərin əvvəllərində Heydər Əliyevin Azərbaycan SSR-də etnik siyasəti və milli azlıqlara münasibəti"** adlanan üçünü yarımfəsildə Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan SSR-də etnik münasibətlərin tənzimlənməsi və milli azlıqlara münasibətin mahiyyəti araşdırılır. Onun milli siyasət konsepsiyasında etnik qrupların hüquqlarının qorunması, onların sosial-mədəni inkişafı və respublikanın ictimai-siyasi həyatına inteqrasiyası xüsusi yer tuturdu.

Heydər Əliyev milli azlıqların mədəni irsinin qorunmasına, dillərinin və adət-ənənələrinin yaşadılmasına şərait yaradılmasına diqqət yetirmişdir. Respublikanın müxtəlif bölgələrində yaşayan ruslar, yəhudilər, talışlar, ləzgilər, gürcülər və digər etnik icmaların mədəni-maarif müəssisələrinin fəaliyyəti dəstəklənmiş, məktəblərdə ana dillərinin tədrisinə imkan yaradılmışdır.

Eyni zamanda, milli azlıqlar respublikanın iqtisadi, siyasi və ictimai həyatında fəal iştirak edirdilər. Onların kadr potensialından dövlət idarəçiliyində, elm və mədəniyyət sahələrində istifadə olunması, Azərbaycan cəmiyyətində tolerant mühitin formalaşmasına zəmin yaratmışdır.

Beləliklə, bu dövrdə Heydər Əliyevin etnik siyasəti Azərbaycan SSR-də müxtəlif xalqlar arasında qarşılıqlı anlaşma və əməkdaşlıq prinsiplərinə əsaslanmış, milli həmrəyliyin möhkəmlənməsinə xidmət etmişdir.

Tədqiqat işinin ikinci fəsli **"Azərbaycan SSR-də milli siyasət intibah dövründə (XX əsrin 70-80-ci illəri)"** adlanır. Bu fəsil 3 yarımfəsildən ibarətdir. **"Azərbaycan SSR-də Heydər Əliyevin rəhbərliyi dövründə milli kadrların formalaşması və inkişafı prosesi"** adlı yarımfəsildə Heydər Əliyevin rəhbərliyi dövründə milli kadrların hazırlanması, onların müxtəlif sahələrdə irəli çəkilməsi və dövlət idarəçiliyində rolunun gücləndirilməsi məsələləri araşdırılır. 1969-cu il-

dən etibarən respublikada milli kadr siyasətinə xüsusi diqqət yetirilmiş, Azərbaycan gənclərinin təhsil alması, ixtisaslı mütəxəssislərin hazırlanması və rəhbər vəzifələrə irəli çəkilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Heydər Əliyev milli kadr potensialının inkişafını respublikanın gələcək siyasi, iqtisadi və mədəni tərəqqisi üçün strateji məsələ kimi dəyərləndirmişdir. Bu məqsədlə minlərlə gəncin SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi təmin olunmuş, respublikada yeni elmi-tədqiqat institutları və ali təhsil müəssisələri fəaliyyətə başlamışdır. Nəticədə milli kadrların sayı artmış, onların idarəetmədə və istehsalatda mövqeyi möhkəmlənmişdir.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi dövründə həyata keçirilən milli kadr siyasəti Azərbaycan SSR-də intellektual potensialın güclənməsinə, peşəkar mütəxəssislərin formalaşmasına və müstəqillik dövründə ölkənin inkişafına xidmət edəcək milli elitanın yetişməsinə möhkəm zəmin yaratmışdır.

**“XX əsrin 70–80-ci illərində Azərbaycan elminin inkişaf istiqamətləri və Heydər Əliyevin rolu”** adlı ikinci yarımfəsildə elmi müəssisələrin şəbəkəsinin genişləndirilməsi, yeni tədqiqat institutlarının yaradılması, Azərbaycan alimlərinin SSRİ miqyasında nüfuz qazanması, onların beynəlxalq elmi tədbirlərdə iştirakı, ali məktəblərdə elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi, alimlərə və ziyalılara göstərdiyi diqqət və qayğı kimi məsələlər təhlil edilmişdir. Bu illər Azərbaycan elminin yeni mərhələyə qədəm qoyduğu və müstəqillik dövrü üçün intellektual baza formalaşdırdığı bir dövr kimi qiymətləndirilir.

**“Heydər Əliyevin Azərbaycana rəhbərliyinin I dövründə milli mədəniyyətin inkişaf istiqamətləri”** adlı üçüncü yarımfəsildə 1969–1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan SSR-də milli mədəniyyətin inkişaf meylləri və istiqamətləri araşdırılır. Həmin dövr milli mədəniyyətin qorunması, milli irsin bərpası, incəsənətin və ədəbiyyatın inkişafı üçün mühüm mərhələ kimi səciyyələnir.

Tədqiqat işinin üçüncü fəsli **“Milli-mənəvi dəyərlərin inkişafında Ulu Öndər Heydər Əliyevin rolu”** adlanır. Bu fəsil 2 yarımfəsildən ibarətdir. **“Milli-mənəvi siyasətin müəyyənləşməsində Heydər Əliyevin rolu”** adlanan yarımfəsildə Heydər Əliyevin Azərbayca-

na rəhbərliyinin birinci dövründə milli-mənəvi siyasətin formalaşmasında və həyata keçirilməsində oynadığı mühüm rol araşdırılır. Həmin dövrdə cəmiyyətin mənəvi həyatının gücləndirilməsi, milli kimliyin qorunması və milli-mənəvi dəyərlərin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir.

Nəticə etibarilə, Heydər Əliyevin milli-mənəvi siyasət sahəsində gördüyü işlər Azərbaycan xalqının milli kimliyinin möhkəmlənməsinə, milli şüurun güclənməsinə və mənəvi-mədəni dəyərlərin gələcək nəsillərə ötürülməsinə xidmət etmişdir. Bu siyasət, həm də müstəqillik dövründə milli ideyanın formalaşmasına ideoloji zəmin yaratmışdır.

İddiaçı **“Tarixi-mədəni irs və milli-mənəvi dəyərlərin qorunması, inkişaf etdirilməsi. Milli-mədəni irsin təbliği istiqamətləri”** adı ikinci yarımfəsildə Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə milli-mədəni irsin qorunması, inkişaf etdirilməsi və geniş şəkildə təbliği istiqamətində görülən tədbirlər araşdırılır. Həmin illərdə milli-mədəni dəyərlərin dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilməsi, həm xalqın mənəvi birliyinin gücləndirilməsinə, həm də milli şüurun formalaşmasına xidmət etmişdir.

Heydər Əliyevin təşəbbüsü ilə respublikada bir sıra tarixi-memarlıq abidələrinin bərpası və qorunması həyata keçirilmişdir. Eyni zamanda, milli-mənəvi dəyərlərin təbliği istiqamətində ədəbiyyat, incəsənət, musiqi və teatr sahələrində geniş işlər görülmüşdür. Folklor irsinin sistemli şəkildə toplanması və nəşri, muğamın, aşıq sənətinin və klassik musiqinin inkişafı dövlət səviyyəsində dəstəklənmişdir.

Milli-mədəni irsin beynəlxalq miqyasda təbliği də diqqət mərkəzində olmuşdur. Azərbaycan incəsənət xadimlərinin ittifaq və beynəlxalq tədbirlərdə iştirakı, milli musiqinin və ədəbiyyatın xarici ölkələrdə tanıdılması respublikanın mədəni nüfuzunun artmasına imkan vermişdir.

Beləliklə, bu yarımfəsildə göstərilir ki, Heydər Əliyevin rəhbərliyi dövründə tarixi-mədəni irs və milli-mənəvi dəyərlərin qorunması, inkişafı və təbliği məqsədyönlü dövlət siyasətinə çevrilmiş, bunun nəticəsində Azərbaycan xalqının milli kimliyi daha da möhkəmlənmiş, mənəvi dəyərlər isə gələcək nəsillərə ötürülməsi üçün zəmin qazanmışdır.

İddiaçı **"Nəticə"** hissəsində tədqiqatını yekunlaşdırmış, gəldiyi əsas nəticələri bildirmişdir.

1. XX əsrin 70–80-ci illərinin əvvəllərində Azərbaycan SSR-də milli siyasətin həyata keçirilməsi SSRİ-nin ideoloji prinsipləri çərçivəsində baş verməsinə baxmayaraq, respublikanın milli-mədəni inkişafında mühüm rol oynamışdır.

2. Heydər Əliyevin rəhbərliyə gəlməsindən sonra milli siyasətin mahiyyətində yeni mərhələ başlanmış, milli kimliyin qorunması, dövlət dilinin mövqeyinin möhkəmləndirilməsi, tarixi-mədəni irsin bərpası və milli kadrların hazırlanması dövlət siyasətinin prioritet istiqamətlərinə çevrilmişdir.

3. Milli kadrların formalaşdırılması siyasəti nəticəsində respublikanın idarəçilik, elm, təhsil, mədəniyyət və hərbi sahələrində azərbaycanlı mütəxəssislərin rolu əhəmiyyətli dərəcədə artmışdır. Bu proses həm respublikanın daxili idarəetmə imkanlarını gücləndirmiş, həm də gələcək müstəqillik dövrü üçün peşəkar kadr bazasının formalaşmasına zəmin yaratmışdır.

4. Heydər Əliyevin milli siyasət konsepsiyasında mədəniyyət və incəsənətin inkişafı, xalq yaradıcılığının, folklorun və milli musiqinin qorunması xüsusi əhəmiyyət kəsb etmişdir. Bu istiqamətdə atılan addımlar milli şüurun güclənməsinə və milli dəyərlərin gələcək nəsillərə ötürülməsinə xidmət etmişdir.

5. Etnik siyasət sahəsində milli azlıqlara münasibət tolerantlıq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanmış, onların mədəni hüquqlarının təmin edilməsi, dillərinin və adət-ənənələrinin qorunması üçün zəruri şərait yaradılmışdır.

Ümumilikdə, Heydər Əliyevin milli siyasət kursu Sovet imperiyasının sərt ideoloji məhdudiyyətləri daxilində həyata keçirilsə də, Azərbaycan SSR-də milli kimliyin qorunması, milli-mənəvi dəyərlərin inkişafı və milli şüurun yüksəlişi üçün mühüm tarixi mərhələ olmuşdur. Bu siyasət, sonrakı illərdə müstəqillik hərəkatının ideoloji əsaslarının formalaşmasına və milli dövlətçilik ənənələrinin möhkəmlənməsinə zəmin hazırlamışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalə və tezislərində öz əksini tapmışdır:**

1. Azərbaycan SSR-də Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə milli-mənəvi dəyərlərin inkişafında yeni mərhələnin başlanması // – Bakı: "Tarix və onun problemləri" jurnalı. Xüsusi buraxılış, – 2023. №2, – s.156-162
2. Heydər Əliyev və milli siyasət konsepsiyası // – Bakı: Geostrategiya jurnalı, – 2024. №2(80), – s. 85-91.
3. Heydər Əliyevin Azərbaycan elminə qayğısı (XX əsrin 70-80-ci illəri) // – Bakı: "Tarix insan və cəmiyyət". Elmi-nəzəri, elmi-metodik jurnal, – 2024. №4(45), – s. 72-82.
4. İmplementation of Heydar Aliyev's national policy concept (1970s-1980s) // – Türkiyə: Akademik tarih ve düşünce dergisi, – 2025. №12(1), – s. 771-784.
5. XX əsrin 70-80-ci illərində Azərbaycanda hərbiçi kadrların hazırlanması // – "Tarix və onun problemləri" jurnalı, – 2025. №1 (108), – s. 94-100.
6. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə ədəbi irsə və ədəbiyyata qayğı // – Bakı: "Bakı Universitetinin xəbərləri". Humanitar elmlər seriyası, – 2024. №4, – s. 107-119.
7. 1969-1982-ci illərdə Azərbaycanda milli-mənəvi və milli mədəniyyət irsinin təbliği məsələləri – Qafqazda sülh və əməkdaşlıq məsələləri. Respublika elmi konfransı, – Bakı: AMEA, – 3 may, – 2023, – s. 136-138.
8. Heydər Əliyev və Azərbaycan dilinin inkişafı (1969-1982-ci illər), – "Azərbaycan elminin və təhsilin inkişafında Heydər Əliyev epoxası" adlı beynəlxalq elmi konfransı, – Bakı: ADNSU, – 4-5 iyul, – 2023, – s. 75-77.
9. 1969-1982 Yıllarında Karabağ'da Milli Manevi ve Milli Kültür Mirasının Tanıtılması Sorunları, – 5 Uluslararası Sosyal Bilimler Kongresi, – Türkiyə: "Bayburt Universiteti", – 19 oktyabr, – 2023, – s. 266.

10. Milli ruhun təntənəsi olan Şuşa şəhərinə Heydər Əliyevin qayğısı (1969-1982-ci illər), – "Şuşa şəhəri: Azərbaycan mədəniyyəti Qafqaza və dünyaya" beynəlxalq elmi konfransı, – Bakı: AMEA, – 1 noyabr, – 2023, – s. 97-98.
11. İntibah dövrünün milli-mənəvi siyasətinin müəyyənləşdirilməsində Heydər Əliyev siyasəti, – Türk dünyası: Ortaq tarixi-mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış. I Beynəlxalq elmi konfrans, – Bakı: BDU, – 19-20 dekabr, – 2023, – s. 203-207.
12. Şuşa şəhərinin inkişafında Heydər Əliyevin milli siyasət konsepsiyasının rolu (1969-1982-ci illər), – "İslam mədəniyyətini zənginləşdirən şəhər: Şuşa" mövzusunda beynəlxalq elmi konfransı, – Bakı: AMEA, – 25 aprel, – 2024, – s. 75-76.
13. XX əsrin 70-80-ci illərində Azərbaycanda elm və mədəniyyət sahələrində əlaqələrin inkişafında Heydər Əliyevin rolu, – "Cənubi Qafqazda dövlətlərarası münasibətlərdə şəxsiyyət Amili: tarixdən günümüzə" Respublika elmi konfransı, – Bakı: AMEA, – 6 noyabr, – 2024, – s. 83-85.
14. Protection of the national moral heritage during the republic of the national leader Hayder Aliyev (70-80s of XX century), // – "14th İnternational congress on social, humanities, administrative, and educational sciences in a Changing world", – Türkiyə: Congress Proceedings Book – 6-8 noyabr, – 2024, – s. 1090-1096.
15. Heydar Aliyev's care for Azerbaijan scientists and science during his first leadership of the republic, – 14th İnternatıonal "Başkent" Congress on socıal, humanıtıes, admınıstratıve, and educatıonal scıences– Türkiyə: Congress Proceedings Book – 12-14 dekabr, – 2024, – s. 1766-1769.
16. The role of National leader Heydar Aliyev in the development of the Azerbaijani language, – Proceedings of the 8th İnternational Scientific and practical conference. Scientific paradigm in the

context of technologies and society development – İsveçrə, 26-28 fevral, – 2025, – s. 289-294.

17. Heydər Əliyevin milli siyasəti kontekstində XX əsrin 70-80-ci illərində Azərbaycanın demoqrafiq inkişafı, – Gənc tədqiqatçıların VIII Respublika elmi konfransı, – Bakı: Azərbaycan Universiteti, – 14 mart, – 2025, – s. 217-221.

Dissertasiyanın müdafiəsi 29.10. 2025-ci il tarixində saat 10:00 Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1148, Bakı şəh., Yasamal r-nu, Zahid Xəlilov küç. 33.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 sentyabr 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.09.2025
Kağızın formatı: 60x84 $^{1}/_{16}$
Həcm: 38080
Tiraj: 100